# Narkomaniyaya “yox” deyək!

Narkotiklə mübarizə, narkomaniya ilə mübarizə dedikdə narkomanlarla mübarizə nəzərdə tutulur. Beynəlxalq təşkilatların qəbul və təsdiq etdiyi prinsiplər narkotikə qarşı mübarizə zamanı diqqətli olmağı tövsiyə edir. Bu, narkotik istifadəçilərinə qarşı müharibə kimi qəbul olunmamalıdır. Çünki narkotikdən əziyyət çəkən insanlara qarşı mübarizə aparmaq, adətən, onları daha da sıxışdırmaqla problemin getdikcə artması ilə nəticələnir. Mütəxəssilərin fikrincə, bu insanları cəmiyyət arasına gətirmək, onların reablitasiyasına çalışmaq və narkotik asılılıqlarını bir xəstəlik kimi qəbul etmək, onları tətbiq etməmək və s. lazımdır. Bütün bunlar Avropa ölkələrində də tətbiq olunur və çox müsbət nəticələr verir.

Bu bəladan qurtulmağın müxtəlif yolları vardır. Ancaq məqsəd bu xəstəliyə, bu bəlaya, “ağ ölümə” yoluxmadan qabaq qarşısını almaqdır. Burada cəmiyyət olaraq hər kəsin sosial vəzifəsi vardır. Gənclərimizi, uşaqlarımızı bu bəladan uzaq tutmaq, onlarla söhbətlər aparmaq, “ağ ölümün” fəsadlarından danışmaq və bu qəbildən müəyyən tədbirlər görmək lazımdır.

Əksər mütəxəssislər düşünür ki, uşaqlarımızı sərbəst buraxmaqla yanaşı, həm də onların asudə vaxtlarının fəaliyyəti istiqamətində müəyyən fakultativ məsləhətlər vermək daha məqsədəmüvafiqdir. Gənclərimizi, uşaqlarımızı elmə, idmana, incəsənətə yönlətsək, eyni zamanda, narkomalığın necə bir bəla olduğunu dərk etmələrinə zəmin yaratsaq, əlbəttə, bu bəladan uzaq durar və ətrafını da “ağ ölüm”dən qorumağa çalışar.




Əfsuslar olsun ki, bəşəri bəla olan narkomaniyanın sərhəd tanımadan genişlənməsi ölkəmiz üçün həlli vacib məsələlərdən birinə çevrilmişdir. Çünki ölkəmizdə narkotik vasitələrdən istifadə edənlərin sayı ildən-ilə artmaqda davam edir.

Dövlətimiz bütün qüvvə və imkanlarını səfərbər edib bu bəlanın kökünün kəsilməsi istiqamətində zəruri qanunvericilik bazası yaradaraq müvafiq beynəlxalq sənədlərə və təşəbbüslərə qoşulmuşdur.

Ölkəmizdə ilk dəfə “Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər ümummilli lider Heydər Əliyevin 1996-cı il 26 avqust tarixli, 485 nömrəli Fərmanında öz əksini tapmaqla narkomanlıqla mübarizə sahəsində dövlət siyasətinin strateji istiqamətləri dəqiq göstərilmişdir.

Bu strateji kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu sahədə ölkəmizdə qətiyyətli mübarizənin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli 1334 nömrəli Sərəncamı ilə sayca beşinci olan “Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” qəbul edilmişdir.

“Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə 2020-ci ildə rayonunda Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Şəmkir Rayon Komissiyası tərtib olunmuş iş planına əsasən bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, Şəmkir rayonunda narkotiklərlə mübarizə işini daha səmərəli, fəal və effektli aparılmasına, qanunsuz dövriyyədən külli miqdarda, o cümlədən güclü təsirə malik narkotik vasitələrin götürülməsinə nail olmaq məqsədilə rayon ərazisində görülən işlərin gündəlik operativ qaydada uçotu aparılmış, hər rübün yekununda narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizənin vəziyyəti təhlil edilmiş, mütəmadi olaraq əməliyyat müşavirələrində yaranmış vəziyyət təhlil edilərək müzakirə edilmişdir.

Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarından irəli gələn vəzifələrin bir daha NMQ-nin əməkdaşı tərəfindən öyrənilməsinə və icrasına diqqət artırılmış, agentura ilə işin təşkili və əməliyyat-qeydiyyat işlərinin açılması və aparılması sahəsində fəaliyyət gücləndirilmiş, digər xidmət sahələri, o cümlədən ərazi polis bölmələri ilə qarşılıqlı əlaqələrin yaxşılaşdırılmasına diqqət artırılmışdır.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı Tədbirlər Planının aidiyyəti bəndlərinin icrası, eləcədə dini radikalizmlə əlaqədar hesabat dövründə Şəmkir rayonunun şəhər və kəndlərində 31 dəfə maarifləndirmə tədbirləri, orta məktəblərdə isə müəllim kollektivi və şagirdlərlə görüşlər keçirilmişdir.

Narkomanlığa qarşı mübarizədə tək Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Şəmkir rayon Komissiyası yox, eyni zamanda rayon Polis, Təhsil şöbələri, Gənclər və idman idarəsi və digər aidiyyəti qurumlar mütəmadi olaraq bir sıra tədbirlər həyata keçirirlər. Fikrimizcə, bu, narkomaniyaya qarşı intensiv mübarizədə öz töhfəsini verəcəkdir.

✍ **Ruslan İsmayılov**



2021.- 30 yanvar.- S.14.